Bakı Arbitraj Mərkəzinin Şəffaflıq Siyasəti və Daxili Nəzarət Qaydaları Mərkəzin İdarə Heyətinin Ümumi Yığıncağının 25 oktyabr 2025-ci il tarixli, 001/2025 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

BAKU
ARBITRATION
CENTRE

“Bakı Arbitraj Mərkəzi” qeyri-kommersiya hüquqi şəxsi şəffaflıq siyasəti və daxili nəzarət qaydaları

1. Qısaltmalar və anlayışlar

1.1. **Təşkilat** - “Bakı Arbitraj Mərkəzi” qeyri-kommersiya hüquqi şəxsi;

1.2. **Arbitraj qərarı** - Arbitraj məhkəməsi tərəfindən çıxarılan məcburi hüquqi qüvvəyə malik qərar;

1.4. **Struktur bölmələri -** Ümumi Yığıncaq, Sədr, İcra Orqanı, Arbitraj Komissiyası və Katiblik

1.3. **Katiblik** - “Bakı Arbitraj Mərkəzi” Katibliyi

1.4. **Sədr** – Təşkilatın təkbaşına icra orqanı və qanuni təmsilçisi

1.5. **Maliyyə ili** - 1 yanvar - 31 dekabr arasındakı dövr

1.6. **Qanun -** “Arbitraj haqqında” Azərbaycan Respublikasının qanunu

2. Preambula

2.1. Bu sənəd “Arbitraj haqqında” Azərbaycan Respublikasının qanununa, “Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası”na və Təşkilatın nizamnaməsinə uyğun hazırlanmışdır.

2.2. Bu sənədin məqsədi Təşkilatı fəaliyyəti zamanı şəffaflığın təmin edilməsi, maraqların toqquşmasının aradan qaldırılması və daxili nəzarət mexanizmlərinin səmərəli şəkildə işləməsidir. Təşkilat öz idarəetməsində, maraqlı tərəflərin Təşkilata etimadının artırılması üçün Azərbaycan Respublikası ilə yanaşı, aidiyyəti beynelxalq normaların tələblərinə də riayət edir.

2.3. Bu sənəd Təşkilatın struktur bölmələrini, işçilərini, arbitrlərini, habelə Təşkilat adından fəaliyyət göstərən digər işçiləri əhatə edir.

3. İnformasiya açıqlığı

Təşkilatın Arbitraj qaydaları, təşkilatın arbitrlər siyahısı, xidmət haqları, təşkilatın struktur bölmələrinin tərkibləri, təsdiqlənmiş hesabatlar və nəzərdə tutulan digər məlumatlar ictimaiyyət üçün açıq olur.

4. İllik hesabat və digər məlumatlar

4.1. Təşkilat hər maliyyə ili başa çatdıqdan sonra illik fəaliyyət hesabatı hazırlayır.

4.2. Hesabat aşağıdakı məlumatları özündə ehtiva edir:

4.2.1. Baxılmış işlərin statistikası və növləri

4.2.2. Təşkilatın təşəbbüs və layihələri

4.2.3 Təşkilatın struktur bölmələrinin tərkibi

4.3. Təşkilat Ümumi Yığıncaq tərəfindən təsdiq olunduqdan sonra hesabatı rəsmi veb-saytında və ya digər platformalarında dərc edir.

5. Təşkilatda seçim meyarları

5.1. İşçilər peşəkar reputasiya, müstəqillik və yüksək etik meyarlara əsasən seçilir.
5.2. Arbitrlərin Təşkilatın siyahısına salınması üçün seçimində Qanunun müəyyən etdiyi meyarlar əsas götürülür.

6. Arbitraj qərarlarının açıqlanması

6.1. Təşkilat şəffaflıq prinsipini rəhbər tutmaqla bərabər, arbitrajın konfidensiallığını qorumaq öhdəliyi daşıyır. Ona görə də yalnız tərəflərin açıqlanmasına etiraz etmədiyi arbitraj qərarları ictimaiyyətə açıqlana bilər.

6.2. Təşkilat arbitraj qərarlarının dərc olunması müstəsna hüququndan istifadə edərək bu qərarların onlayn formada yayımlanması məqsədilə müxtəlif veb-saytlar və platformalarla əməkdaşlıq edə bilər.

7. Üçüncü tərəf maliyyələşdirilməsi

Təşkilat üçüncü tərəf maliyyələşdirilməsi ilə bağlı qaydalar müəyyən edə, tərəflərdən belə maliyyələşdirilmənin mövcudluğu barədə məlumatı bildirməyi tələb edə bilər. Belə bir tələb arbitr və ya namizəd arbitrlərin qəbul, əlçatanlıq, qərəzsizlik və müstəqillik bəyanatlarındakı öhdəliklərini icra etməsinə yardımçı olmaq məqsədini daşıyır.

8. Təşkilatın struktur bölmələrinin tərkibi

Təşkilat nizamnaməsinə uyğun olaraq Bakı Arbitraj Mərkəzinin Ümumi Yığıncağı, Katiblik, Arbitraj Komissiyası eləcə də digər idarəetmə orqanlarının tərkibi, eləcə də dəyişiklik, təyinat ilə bağlı ictimaiyyətə məlumat verir.

9. Maraqların toqquşması

9.1. Arbitrajın müstəqil, qərəzsiz və şəffaf şəkildə həyata keçirilməsini təmin etmək üçün arbitr və digər iştirakçıların potensial və ya faktiki maraqların toqquşmasından yayınmasını zəruridir.
9.2. Arbitrlər təyinatdan əvvəl və arbitraj prosesi boyunca, tərəflərdən hər hansı biri ilə, onların nümayəndələri ilə və ya üçüncü tərəf maliyyələşdiriciləri ilə bağlı münasibətlərini qiymətləndirərək, qərəzsizlik və müstəqilliklərinə xələl gətirə biləcək və ya belə bir təəssürat yarada biləcək halları Katibliyə və tərəflərə dərhal açıqlamalıdırlar.

10. Şəffaflığa nəzarət

10.1. Təşkilat şəffaflığın təmin olunmasını yalnız öhdəlik kimi deyil, həm də daimi nəzarət və təkmilləşdirmə tələb edən strateji proses kimi dəyərləndirir. Bu məqsədlə Təşkilat daxili nəzarət orqanı olaraq etik və şəffaflıq üzrə komitələr yarada bilər. Əlavə olaraq, şəffaflığın qorunması istiqamətində Təşkilat müntəzəm hesabatlılığın təmin edilməsini hədəf kimi müəyyən edir.

10.2. İstər tərəflər, istərsə də arbitrlər tərəfindən Təşkilatın şəffaflıq siyasətinin tətbiqi ilə bağlı sual, şikayət və ya təkliflər xüsusi elektron forma və ya müəyyən edilmiş əlaqə vasitəsilə Katibliyə təqdim oluna bilər. Bu müraciətlər anonim şəkildə də qəbul edilə bilər.